| RAZILAŞDIRILMIŞDIR: | TƏSDİQ EDİLMİŞDİR: |
|---|---|
| Azərbaycan Respublikası Mərkəzi Bankın | “Qala Sığorta” Açıq Səhmdar Cəmiyyəti |
| Baş direktoru | İdarə Heyətinin sədri |
| ___________________ Z. Z. Əliyev | __________________ F. K. Allahverdiyev |
| «_10_» _______iyun________ 2024-cü il | «___29____» ______may_______ 2024-cü il |

**Neft və qaz yataqlarında kəşfiyyat və hasilat işlərinin aparılması sığortası**

**QAYDALARI**

**“Qala Sığorta” ASC**

**2024**

# MÜNDƏRİCAT

ƏSAS ANLAYIŞLAR ........ 3
1. SIĞORTA SİNFİ ........ 5
2. SIĞORTA PREDMETİ ........ 5
3. SIĞORTA OBYEKTİ ........ 5
4. SIĞORTA MƏBLƏĞİ ........ 5
5. SIĞORTA TƏMİNATI ........ 5
6. SIĞORTA RİSKLƏRİNDƏN İSTİSNALAR ........ 8
7. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANMASI ........ 8
8. SIĞORTA HAQQI ........ 9
9. AZADOLMA MƏBLƏĞİ ........ 10
10. SIĞORTA MÜQAVİLƏSİNƏ ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏRİN EDİLMƏSİ ........ 10
11. SIĞORTA MÜQAVİLƏSİNƏ XİTAM VERİLMƏSİ ........ 10
12. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERMƏNİN NƏTİCƏLƏRİ ........ 11
13. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ: ........ 12
14. SIĞORTA RİSKİNDƏKİ DƏYİŞİKLİKLƏR ........ 14
15. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ SIĞORTALININ VƏZİFƏLƏRİ VƏ SIĞORTAÇI TƏRƏFİNDƏN NƏZARƏT ........ 14
16. SIĞORTA HADİSƏSİNİN TƏSDİQİ ........ 14
17. ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ ........ 15
18. SIĞORTA ÖDƏNİŞİ ........ 15
19. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNDƏN İMTİNANIN ƏSASLARI ........ 16
20. SUBROQASİYA HÜQUQU ........ 16
21. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ ........ 17
22. İŞ SİRLƏRİNİN GİZLİ SAXLANILMASI ........ 17
23. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI ........ 17
24. XÜSUSİ ŞƏRTLƏR ........ 17

**ƏSAS ANLAYIŞLAR**

**Sığortalı** – sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfi;

**Sığortaçı** – sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs;

**Faydalanan şəxs** –sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişi verilməli olan şəxs;

**Aktuari** – qanunvericiliyə uyğun olaraq iqtisadi-riyazi hesablamalar aparmaqla sığorta haqlarının hesablanmasının əsaslarını müəyyən edən, həmçinin sığorta ehtiyatlarını hesablayan mütəxəssis;

**Sığorta hadisəsi** – qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal;

**Sığorta tələbi** – sığorta hadisəsi baş verdikdə sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığortaçıya öz vəzifələrini qanunvericiliyə və sığorta müqaviləsinə uyğun olaraq icra etməsi barədə müraciəti;

**Sığorta ödənişi** – sığorta hadisəsi baş verdikdə, qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

**Sığorta marağı** –sığorta hadisəsinin baş verəcəyi təqdirdə sığortalının maliyyə itkisinə məruz qalması ehtimalı və onun obyektini sığorta etdirmək hüququnun əsaslandığı mənafedir.

**Sığorta haqqı** – risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta qanunvericiliyinə uyğun olaraq, sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləği;

**Sığorta riski və ya risk** – sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəlik;

**Sığorta tarifi** – sığorta haqqının hesablanması üçün aktuari hesablamalarına əsasən müəyyən edilən faiz dərəcəsi;

**Sığorta müqaviləsi** – sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşma;

**Sığorta şəhadətnaməsi** – sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən, sığortaçı tərəfindən sığortalıya və (və ya) sığorta olunana verilən sənəd;

**Sığorta müddəti** – sığorta risklərinin sığortalanmış hesab olunduğu müddət;

**Azadolma məbləği** – Azadolma məbləği, sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissədir. Azadolma məbləği

sığorta müqaviləsinə uyğun olaraq müəyyən edilən zərər məbləğindən, qismən sığorta halında isə sığortaçının zərər məbləğindəki payından çıxılır.

**Əhəmiyyətli hallar** - Sığortaçının müqavilədən imtina etmək və ya onun şərtlərinin müəyyənləşdirilməsi qərarına təsir göstərə bilən hallar.

**Sığorta olunmuş quyu(lar)** - aşağıdakı mərhələlərdən birində olan neft və/və ya qaz və/və ya istilik enerjisi quyuları:

1. qazılma, dərinləşdirmə, baxılma, təmir edilmə, tamamlanma və/və ya bərpa edilmə müddətində iş qurtarana və ya ləğv edilənə qədər;
2. istismar dövründə;
3. bağlı olduğu müddətdə;
4. müvəqqəti olaraq dayandırıldığı və ləğv edildiyi müddətdə.

**Hadisə** - ayrıca bir itki, fəlakət və ya qəza və yaxud bir hadisənin təzahürü kimi ortaya çıxan itkilər, fəlakətlər və ya qəzalar:

1. Sığorta müddətində 72 (yetmiş iki) ardıcıl saat ərzində eyni atmosfer dalğalanmasından yaranan fırtınalı külək, tornadolar, siklonlar, qasırğalar, oxşar fırtına və ya güclü və dağıdıcı təsirə malik küləklər bir hadisə kimi qiymətləndirilir.
2. Hər bir zəlzələ təkanı və ya vulkan püskürməsi ayrıca bir hadisə kimi qiymətləndirilir. Lakin, əgər sığorta müddətində 72 (yetmiş iki) ardıcıl saat ərzində bir sıra zəlzələ təkanları və ya vulkan püskürmələri baş verərsə, o zaman belə yeraltı təkanlar və ya vulkan püskürmələri, hal-hazırda sığortaya müvafiq olaraq bir hadisə kimi qiymətləndiriləcəkdir.

## 1. SIĞORTA SİNFİ

1.1 Sığorta obyektinə görə əmlak sığortasına aid olan Əmlakın yanğın və digər risklərdən sığortası sinfinə aiddir.

## 2. SIĞORTA PREDMETİ

2.1. Sığorta predmeti dedikdə Sığorta müqaviləsində nəzərdə tutulmuş neft və qaz quyusu başa düşülür.

## 3. SIĞORTA OBYEKTİ

3.1. Bu qaydalara əsasən sığorta obyekti, sığorta müqaviləsində göstərilmiş sığorta predmetinə Sığortalının sahibliyi, ondan istifadə etməsi və (və ya) ona sərəncam verməsi ilə bağlı əmlak maraqlarıdır.

## 4. SIĞORTA MƏBLƏĞİ

4.1. Sığorta məbləği (limiti) sığortaçı ilə sığortalı arasında razılaşdırılaraq müəyyənləşdirilir və sığortaçının öhdəliyinin son həddidir.

4.2. Sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta məbləği sığortanın qüvvədə olduğu müddət ərzində baş verən bütün sığorta hadisələri ilə əlaqədar verilən sığorta təminatı ödənişinin maksimum miqdarını müəyyən edir.

## 5. SIĞORTA TƏMİNATI

Sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmayıbsa, sığorta təminatı aşağıdakı bölmələr üzrə seçilərək verilir:

### 5.1. Bölmə A. QUYU ÜZƏRİNDƏ NƏZARƏTİN BƏRPA EDİLMƏSİ

#### 5.1.1. Sığorta təminatı:

Sığorta məbləği (limiti) çərçivəsində və bu qaydalara müvafiq olaraq, sığortalı tərəfindən çəkilmiş aşağıdakı faktiki xərclər sığortaçı tərəfindən ödənilir:

(a) nəzarətdən çıxmış hər hansı bir və ya bütün sığorta olunmuş quyular üzərində nəzarətin bərpa edilməsi üçün və ya bərpa edilməsinə cəhd edilərkən çəkilən xərclər. Lakin, bu bölmənin 5.1.2.-ci maddəsinin b bəndində deyildiyi kimi, yalnız quyu üzərində nəzarət bərpa edilən ana qədərki müddət ərzində çəkilmiş xərclər ödəniləcəkdir; və

(b) i) sığorta olunmuş quyudan yer səthində və ya suyun dibində çıxan alovun və yaxud bilavasitə sığortalanmış quyu üzərində nəzarətin itirilməsi nəticəsində alovlanan hər hansı digər quyunun və ya quyuların, yaxud (ii) sığorta olunmuş quyu və ya quyular üçün təhlükə yaradan yer səthində və

ya suyun dibində çıxmış alovun söndürülməsi üçün və ya söndürülməsinə cəhd edərkən çəkilən xərclər.

Maili quyular, Sığortaçıya dərhal xəbərdarlıq edilməsi və Sığortaçı tərəfindən təyin edilmiş tariflər əsasında hesablanmış əlavə sığorta haqqının ödənilməsi şərtilə, avtomatik olaraq bu bölmə üzrə sığorta təminatına daxil edilir.

**5.1.2. Anlayışlar:**

**a. Nəzarətdən çıxmış quyu:**

Bu sığortanın məqsədləri üçün nəzarətdən çıxmış quyu dedikdə, quyudan yalnız yer səthinə və ya yer altında və yaxud dəniz dibində qazma məhlulunun, neft, qaz və ya suyun qeyri-iradi axını başa düşülür, o halda ki:

(1) Belə axın qısa müddətdə:
a. xüsusi şərtlərdə tələb edildiyi kimi sahədə olan avadanlıq və/və ya fontana qarşı preventor, ştuser və ya digər avadanlıqlar vasitəsilə dayandırıla bilməsin və ya
b. qazma məhlulunun həcminin çəkisini artırmaq və ya başqa analoji materiallarla quyuya müdaxilə etmək yolu ilə dayandırıla bilməsin və ya
c. təhlükəsiz qaydada hasilata yönəldilə bilməsin;

və yaxud

(2) müvafiq tənzimedici orqanlar, axını nəzarətdən çıxmış hesab etmiş olsun.

Bununla belə bu sığortanın məqsədləri çərçivəsində, quyunun lüləsində məhz neft, qaz və ya su axınının olması, əgər bu neft, qaz və ya su yer səthindən müvafiq zaman kəsiyi ərzində dövr etdirilə və ya kənarlaşdırıla bilərsə, belə quyu(lar) nəzarətdən çıxmış hesab edilmir.

**b. Nəzarət altına alınmış quyu:**

Aşağıdakı hallarda bu maddənin a. bəndində göstərilmiş səbəblər nəticəsində nəzarətdən çıxmış quyu(lar) üzərində nəzarət bərpa olunmuş hesab olunacaqdır;

(1) sığorta iddiasına səbəb ola biləcək axın dayanar, dayandırılar və yaxud təhlükəsiz şəkildə dayandırıla bilərsə
və ya
(2) Bilavasitə sığorta hadisəsi baş verməzdən əvvəl aparılan qazma, dərinləşdirmə, baxılma, təmir edilmə, tamamlanma və/və ya bərpa edilmə işləri və bunların tamamlanması və ya digər oxşar əməliyyatlar yenidən aparılmış və ya yenidən aparıla bilərsə
və ya
(3) quyu bilavasitə sığorta hadisəsi baş verməzdən əvvəlki hasilat, dayandırılmış və ya oxşar vəziyyətinə qaytarılırsa və ya qaytarıla bilərsə
və ya
(4) hal-hazırkı bölmədə sığorta hadisəsi kimi qiymətləndirilən neft və ya qaz axını təhlükəsiz şəkildə hasilata yönəldilə bilərsə;

Sığortalanmış quyunun müvafiq rəsmi orqanlar tərəfindən nəzarətdən çıxmış elan edilməsi halları istisna olmaqla, yuxarıda sadalanmış şərtlərdən hansının daha əvvəl baş verməsindən asılı olaraq, belə elanın qüvvədən düşməsi ilə quyu artıq nəzarət altına alınmış hesab olunacaqdır.

**c. Xərclər:**

Bu sığortanın şərtlərinə müvafiq olaraq ödəniləcək xərclərə materialların və ehtiyat hissələrinin dəyəri, quyu üzərində nəzarətin bərpa edilməsi üzrə ixtisaslaşmış şəxslər və ya təşkilatların göstərdiyi xidmətlər üçün ödəmələr, müvafiq rəsmi orqanların təlimatları əsasında çəkilmiş xərclər də daxil olmaq şərtilə, quyu üzərində nəzarəti bərpa etmək məqsədilə aparılan maili qazma və digər oxşar əməliyyatlar üçün çəkilmiş xərclər və eləcə də bu bölmənin 1-ci maddəsində təsvir olunmuş digər xərclər daxildir.

**5.1.3. Xərclərin sona çatması:**

Quyu(lar) üzərində nəzarət bərpa olunduqdan sonra (maddə 5.1.2.b-də deyildiyi kimi) bu məqsədlə çəkilən xərclərin Sığortaçı tərəfindən ödənilməsi dayandırılacaqdır.

**5.1.4. İstisnalar:**

5.1.5. Bu bölmə üzrə aşağıdakı hallarda təminat verilmir:

a. hər hansı qazma və ya hasilat avadanlığının məhv olması və ya zədələnməsi;
b. hər hansı quyunun və ya quyuların, qazma çuxurunun və ya çuxurlarının məhv olması və ya zədələnməsi;
c. istismarın dayanması və/və ya gecikməsi (hasilatda gecikmə və ya təxirə salınma da daxil edilir) və/və ya hasilata zərərin ortaya çıxması (o cümlədən, lay təzyiqinin azalması) və hər hansı layın və ya lay təzyiqin itməsi və ya azalması ilə əlaqədar xərclər

**5.2. Bölmə B. TƏKRAR QAZMA / ƏLAVƏ XƏRCLƏR**

5.2.1. Sığorta təminatı:

Bu sığorta təminatına daxil olan və Bölmə A-da sığorta hadisəsi kimi qiymətləndirilmiş hadisənin baş verməsi nəticəsində dağılan, hər hansı bir şəkildə zədələnən quyunun və yaxud onun bir hissəsinin bərpası və təkrar qazılması məqsədi ilə çəkilən faktiki xərclər Sığortaçı tərəfindən, sığorta məbləği (limiti) çərçivəsində və bu müqavilənin şərtlərinə və qaydalarına müvafiq olaraq, aşağıdakı şərtlərə əməl edilmək şərtilə Sığortalıya ödənilir:

a. Sığortaçı Sığortalıya sadəcə olaraq ən əlverişli və iqtisadi səmərəli üsullardan istifadə edilmək şərti ilə quyunun bərpa edilməsi və təkrar qazılması üçün çəkilən xərclərin və məsrəflərin əvəzini ödəyir.

**5.2.2. İstisnalar:**

Bu bölmə üzrə aşağıdakı hallarda itkilərin əvəzi ödənilməyəcəkdir:

a. hər hansı bir qazma və ya hasilat avadanlığına dəymiş zərər və ya onların məhv olması;
b. gecikmə nəticəsində (hasilat prosesində baş vermiş gecikmə də daxil olmaqla) meydana çıxan hər hansı itki, zərər və ya xərclər və/və ya istismarın dayanması və/və ya quyunun məhsuldarlığının dayanması və ya azalması (həmçinin lay təzyiqinin aşağı düşməsi ilə əlaqədar) və hər hansı bir layın və ya lay təzyiqinin itməsi və ya azalması;
c. hər hansı köməkçi quyunun və yaxud onun bir hissəsinin bərpası və ya təkrar qazılması məqsədi ilə çəkilən xərclər və məsrəflər;
ç. bu sığorta müqaviləsinin A bölməsi ilə təmin olunmuş itki və ya zərər meydana çıxmazdan əvvəl müvəqqəti olaraq bağlanmış və ya ləğv edilmiş və itki və ya zərər meydana çıxdığı anda hələ də müvəqqəti olaraq bağlı və ya ləğv edilmiş vəziyyətdə olan hər hansı bir quyunun quyudaxili avadanlığı, və yaxud təkrar qazılması və/və ya təkrar tamamlanması.
d. Baş verən neft və ya qaz axınının təhlükəsiz şəkildə hasilata yönəldilməsi mümkün olan quyunun bərpa edilməsi və təkrar qazılması üçün, (kanat qazmasında vurucu ştanqın sığorta olunmuş quyuda saxlanması yolu ilə və yaxud sığorta olunmuş quyu üzərində nəzarəti bərpa etmək üçün köməkçi

quyu və ya quyuların qazılması yolu ilə tamamlanma da daxil olmaqla), B bölməsinə əsasən sığorta təminatı verilməyəcəkdir.
e. Sığortaçı qazma quyularında, bu müqavilənin A bölməsinin 5.1.2-ci maddəsində təsvir edildiyi şəkildə nəzarətdən çıxma anındakı dərinlikdən daha çox dərinliyə qazma xərclərini(a); istismarda olan və ya bağlanmış quyularda effektli şəkildə istismar edilən geoloji zona və ya qatların yerləşdiyi dərinlikdən daha çox dərinliyə qazma xərclərini(b) və məsrəflərini ödəməyə görə məsuliyyət daşımır.

## 6. SIĞORTA RİSKLƏRİNDƏN İSTİSNALAR

Sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmayıbsa, bu qaydalara əsasən hər iki Bölmə üzrə aşağıda sadalananlara təminat verilmir:

a. Hər hansı dövlətin, və ya başqa bir hökumət qurumunun, və yaxud hər hansı bir hökumət orqanının və ya onun strukturunun qanunlarına əsasən tətbiq edilən hər hansı cərimə və sanksiyalar;

b. Kompensasiya xarakterli zərərlərin artması nəticəsində əmələ gələn zərərlər də daxil olmaqla hər hansı cəzalandırıcı və ya cərimə tətbiqedici zərərlər;

c. Sığorta müqaviləsi üzrə hər hansı xüsusi şərtlərin və ya qaydalarının tamamilə və yaxud qismən pozulması nəticəsində ortaya çıxan hər hansı bir hadisənin birbaşa və ya dolayısı nəticəsində ortaya çıxan bütün tələb və ya iddialar;

ç. Aşağıdakılar nəticəsində əmələ gələn itki, zərər və ya xərclər:

(1) (a) hər hansı bir hökumət və ya suveren hakimiyyət (de-yure və ya de-fakto), və yaxud hərbi qüvvələrə, həmçinin dəniz və ya hava hərbi qüvvələrinə malik olan və ya onlardan istifadə edən digər hakimiyyət orqanları, yaxud (b) hərbi, dəniz və ya hava qüvvələri yaxud (c) hər hansı belə hökumət, hakimiyyət və ya qüvvələrin təmsilçisi tərəfindən real, görünən yaxud yaxınlaşan hücuma qarşı müdafiə və ya döyüş tədbirləri də daxil olmaqla, sülh və ya müharibə dövründə hər hansı müharibə, düşmən əməliyyatları və ya hərbi əməliyyatlar;

(2) sülh və ya müharibə dövründə, nüvə parçalanması və ya radioaktiv qüvvəyə əsaslanan hər hansı bir hərbi silah(lar);

d. Sığortalı və ya onun adından çıxış edən hər hansı bir şəxsin və ya təşkilatın vicdansız hərəkəti və ya sədaqətsizliyi nəticəsində meydana çıxan itki, zərər və ya xərclər;

e. Sığortaçı ilə xüsusi olaraq, başqa cür razılaşdırılmayıbsa, bu sığorta müqaviləsi qüvvəyə minən zaman qazma, dərinləşdirmə, baxılma, təmir edilmə, tamamlanma və/və ya bərpa edilmə prosesində olan hər hansı bir quyu ilə əlaqədar, belə qazma, dərinləşdirmə, baxılma, təmir edilmə, tamamlanma və/və ya bərpa edilmə işləri tamamilə başa çatanadək meydana çıxan itki, zərər və ya xərclər.

## 7. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANMASI

7.1. Sığorta müqaviləsinin bağlanması

7.1.1. Sığorta müqaviləsinin bağlanması üçün Sığortalı Sığortaçının ərizə formasını doldurur.
7.1.2. Sığorta müqaviləsinin bağlanması faktı sığorta qaydaları əlavə edilməklə, Sığortalıya verilən sığorta şəhadətnaməsi ilə təsdiq edilir.
7.1.3. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi, müqavilədə göstərilən başlama və sona çatma tarixlərində saat 00:01-də qüvvəyə minir və qüvvədən düşür.
7.1.4. Sığorta yalnız sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən sığorta hadisələrini əhatə edir.

7.2. Sığorta müqaviləsinin tərəfləri
7.2.1. Sığortaçı - bu Qaydalara əsasən Sığortaçı dedikdə "Qala Sığorta" ASC başa düşülür.

7.2.2. Sığortalı - Bu Qaydalara əsasən sığorta predmetinə münasibətdə əmlak maraqları olan hər hansı bir fiziki və ya hüquqi şəxs hesab olunur. Bu Qaydalar daxilində Sığortalının hərəkətlərinə onun işçilərinin, rəsmi şəxslərinin, o cümlədən Azərbaycan Respublikasının qanunvericiliyinə, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa, sığorta müqaviləsinə, vəkalətnaməyə (etibarnaməyə) və ya vəzifə öhdəliklərinə əsasən Sığortalı adından çıxış etmək səlahiyyəti olan digər nümayəndələrinin hərəkətləri də aid edilir.

7.2.3. Faydalanan şəxs.
Sığorta müqaviləsi sığorta predmetinin qorunmasında maraqlı olan hər hansı başqa şəxsin – Faydalanan şəxsin xeyrinə də bağlana bilər. Faydalanan şəxsin adı sığorta müqaviləsində göstərilməlidir. Sığorta müqaviləsinin Faydalanan şəxsin xeyrinə bağlanması Sığortalını müqaviləyə əsasən vəzifə və öhdəliklərindən azad etmir. Bu Qaydalar və sığorta müqaviləsi ilə Sığortalıya aid edilən bütün müddəalar sığortadan faydalanmaq niyyətində olan Faydalanan şəxsə də eyni həcmdə aid edilir.

## 8. SIĞORTA HAQQI

8.1. Sığorta haqqı sığorta tariflərinə əsasən hesablanır.

a. Sığorta tarifləri:
(1) Qazma işləri tarifləri, (a) hər hansı bir quyunun qazma və/və ya dərinləşdirmə və/və ya tamamlama prosesi müddətinə, və (b) mövcud müqavilənin geriyə qalmış müddətinə (əgər varsa) tətbiq edilir. Bu müddət (b) ərzində (i) belə bir quyu istismar və/və ya bağlanmış və/və ya müvəqqəti olaraq dayandırılmış və ya ləğv edilmiş vəziyyətdə olmalı, və (ii) Sığortalı sığorta təminatını, öz səlahiyyətindəki istismarda olan və/və ya bağlanmış və/və ya müvəqqəti olaraq dayandırılmış və ya ləğv edilmiş quyuları sığortaya daxil etmək yolu ilə genişləndirməlidir.

(2) Təmir işləri tarifləri hər hansı bir quyunun baxılması və/və ya təmiri və/və ya bərpa edilməsi müddətində tətbiq edilir
və
(3) İstismarda olan və/və ya bağlanmış və/və ya müvəqqəti olaraq dayandırılmış və ya ləğv edilmiş quyular üçün tariflər illik əsasda verilir və müqaviləyə uyğun olaraq qazma işləri tarifləri ilə sığorta haqqı ödənilmiş istismarda olan və/və ya bağlanmış və/və ya müvəqqəti olaraq dayandırılmış və ya ləğv edilmiş quyulara aid edilmir.
b. Bir fut dərinlik üçün nəzərdə tutulmuş tarif dərəcəsi, quyunun yer səthindən dibinə qədər və ya dəniz dibindən quyunun dibinə qədər dərinliyi əsas tutularaq qazılmış ümumi dərinliyinə tətbiq olunur.

c. Quyuların dərinləşdirilməsi və çox təbəqəli tamamlanması üçün nəzərdə tutulan sığorta haqqı, bir fut dərinlik üçün tətbiq olunan qazma işləri tarifinin 100%-ni təşkil edir və bu tarif quyunun, yer səthindən dibinə qədər və ya dəniz dibindən quyunun dibinə qədər, son dərinliyinə aid edilir.

8.2. Sığorta haqqı bir dəfəyə və ya tərəflərin razılığına əsasən hissə-hissə ödənilə bilər.

8.3. Sığorta müqaviləsi sığorta brokeri vasitəsilə bağlandıqda onunla sığortalı və (və ya) sığortaçı arasında bağlanmış vasitəçilik xidməti üzrə müqavilədən asılı olaraq, sığortalı sığorta haqqını sığortaçıya birbaşa, yaxud sığorta brokeri vasitəsilə ödəyə bilər.

8.4. Sığorta haqqı sığorta brokerinə daxil olduğu andan müvafiq sığorta müqaviləsi üzrə ödənilmiş hesab edilir. Müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənildiyi gün saat 00:01-də, lakin şəhadətnamədə göstərilmiş sığorta müddətinin başlanma tarixindən tez olmayaraq qüvvəyə minir.

8.5. Sığorta haqqı və ya onun növbəti hissəsi sığorta müqaviləsində nəzərdə tutulmuş müddətədək ödənilmədikdə və ya sığorta müqaviləsində nəzərdə tutulduğundan daha az məbləğdə ödənildikdə:

8.5.1. Bu halda sığortaçı onun ödənilməsi üçün bu qaydaların 8.5.2.-cı maddəsinin tələbini nəzərə alaraq, yazılı surətdə 15 (on beş) günədək əlavə müddət müəyyən edə bilər;

8.5.2. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 (bir) aydan gec olmayaraq ödənilməlidir.

8.6. Sığortalı sığorta haqqını və ya onun növbəti hissəsini sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə ödəmədikdə, Sığortaçı sığorta müqaviləsinə xitam verə bilər.

## 9. AZADOLMA MƏBLƏĞİ

9.1. Sığorta müqaviləsində şərtli və ya şərtsiz azadolma məbləği, Sığortalı ilə Sığortaçı arasındakı razılığa əsasən müəyyən oluna bilər.

9.2. Şərtli azadolma məbləğinin nəzərdə tutulması halında, sığorta hadisəsi nəticəsində dəyən zərərin həcmi həmin məbləğdən çox olduqda, zərər məbləğindən azadolma məbləği çıxılmır.

9.3. Şərtsiz azadolma məbləği nəzərdə tutulduqda, həmin məbləğ hər bir halda zərər məbləğindən çıxılır.

9.4. Sığorta müqaviləsi qüvvədə olduğu müddət ərzində bir neçə sığorta hadisəsi baş verdikdə azadolma məbləği hər bir hadisə üzrə tətbiq olunur.

## 10. SIĞORTA MÜQAVİLƏSİNƏ ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏRİN EDİLMƏSİ

10.1. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığortalı və sığortaçı müqavilənin müəyyən şərtlərinin dəyişdirilməsi, həmçinin ona müəyyən əlavələr edilməsi barədə razılığa gələ bilərlər.

## 11. SIĞORTA MÜQAVİLƏSİNƏ XİTAM VERİLMƏSİ

11.1. Sığorta müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

11.1.1. sığorta predmeti artıq mövcud olmadıqda;

11.1.2. aşağıdakı hallar istisna olmaqla, sığortalı fiziki şəxs öldükdə və ya sığortalı hüquqi şəxs ləğv olunduqda:

11.1.2.1. əmlak sığortası müqaviləsini bağlamış sığortalı sığorta müqaviləsi bağlayarkən sığortalanmış əmlakı qəbul edəcək hər hansı şəxsi təyin etmiş olduğu, habelə sığorta hadisəsi baş verənədək sığortaçının razılığı ilə onu dəyişdirmiş olduğu hallarda sığortalı fiziki şəxs vəfat edərsə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri bu qaydalarla ilə müəyyən olunmuş vərəsəlik qaydasında sığortalanmış əmlakı qəbul edən şəxsə keçir;

11.1.2.2. qanunvericilikdə və ya müqavilədə başqa şərtlər müəyyən edilməmişdirsə, sığortalının hüquq və vəzifələri sığorta predmeti olan miras əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə həm onun özünün, həm də sığortaçının müqavilədə rəsmiləşdirilən razılığı ilə keçir;

11.1.2.3. sığortalı olan hüquqi şəxs sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə yenidən təşkil edildikdə onun həmin müqavilə üzrə hüquq və vəzifələri müvafiq hüquq varisinə keçir.

11.1.3. Sığorta müqaviləsi üzrə sığortalı olmayan sığorta olunan vəfat etdikdə sığortalının onun başqası ilə əvəz olunması təklifinə sığortaçı etiraz etdikdə;

11.1.4. Qanunvericilikdə, yaxud sığorta müqaviləsində digər hal nəzərdə tutulmamışdırsa, sığortalanmış əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etdikdə; əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etmədikdə əlavə sığorta haqqı ödənilmədən sığorta müqaviləsi üzrə sığortalı dəyişdirilir;

11.1.5. sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;

11.1.6. sığortaçı sığortalı qarşısında öz öhdəliklərini tam olaraq yerinə yetirdikdə;

11.1.7. sığortalı sığorta haqqını sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;

11.1.8. sığorta marağı artıq mövcud olmadıqda;

11.1.9. sığortalı və ya sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etdikdə.

11.2. Sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa, mülki məsuliyyət sığortası üzrə müqavilə məhkəmənin müvafiq qərarının qüvvəyə mindiyi andan xitam verilmiş hesab edilir, digər hallarda isə belə sığortalının hüquq və vəzifələrini onun qəyyumu və ya himayəçisi həyata keçirir.

11.3. Bu maddədə göstərilən hallarda sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda bu Qaydaların 11.4 bəndi nəzərə alınmaqla müqaviləyə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə xəbərdar etməlidir.

11.4. Sığorta müqaviləsinə bu qaydaların 11.1.9-cu maddəsinə uyğun olaraq sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən bu barədə bir tərəf digərinə ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir.

## 12. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERMƏNİN NƏTİCƏLƏRİ

12.1. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığortaçı həmin müqavilə üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxmaqla həmin müddət üçün sığorta haqlarını ona qaytarır. Sığortalının sığorta müqaviləsinə xitam verilməsi ilə bağlı tələbi sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır.

12.2. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) qaytarır. Bu halda sığortaçı sığorta müqaviləsi üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxa bilər.

12.3. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqları) sığortalıya qaytarılmır.

12.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək ödənilmiş sığorta haqqından (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu qaydaların 12.1-ci və 12.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

12.5. Sığorta müqaviləsi bu qaydaların 11.2-ci bəndində müəyyən edilmiş məhkəmə qərarı əsasında xitam verilmiş hesab edildikdə sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını, bu qaydaların 12.3-cü və 12.4-cü bəndlərinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.

## 13. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ:

13.1. Sığortalının vəzifələri:

- 13.1.1. sığorta haqqını vaxtında ödəmək;
- 13.1.2. digər sığorta müqavilələri barədə sığortaçıya məlumat vermək;
- 13.1.3. sığorta hadisəsi baş verdikdə, bu barədə Qaydaların 15.1.-ci bəndində müəyyən edilmiş müddətdə sığortaçını xəbərdar etmək;
- 13.1.4. sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən risklər barədə sorğu forması sığorta müqaviləsi bağlandığı zaman Sığortaçı tərəfindən Sığortalıya təqdim olunur. Sığortalı öz növbəsində sorğu formasındakı sualları dürüst və düzgün şəkildə cavablandırmalı və sığorta müqaviləsi qüvvədə olan müddətdə riskin dərəcəsi dəyişilərsə bu barədə sığortaçıya məlumat verməlidir;
- 13.1.5. mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hüquq və vəzifələr.

13.2. Sığortaçının vəzifələri:

- 13.2.1. sığortalını sığorta qaydaları ilə tanış etmək;
- 13.2.2. sığorta ödənişini bu Qaydaların 18.1-ci bəndində müəyyən edilmiş müddətdə vermək;
- 13.2.3. sığortalı barədə məlumatı, o cümlədən kommersiya sirri olan məlumatı yaymamaq;
- 13.2.4. sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən risklər barədə sorğu formasını sığorta müqaviləsi bağlandığı zaman Sığortalıya təqdim etməlidir. Əhəmiyyətli hal haqqında ərizə

formasında yanlış məlumatlar olduğu sonradan aşkarlanarsa, Sığortaçı müqaviləyə xitam verə bilər.

13.2.5. mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hüquq və vəzifələr.

13.3. Sığortalının hüquqları:

13.3.1. Sığorta müqaviləsi bağlanarkən sığortaçının müstəqil auditor tərəfindən təsdiqlənmiş illik balansı və fəaliyyətinin illik yekunlarına dair maliyyə nəticələri ilə tanış olmaq;

13.3.2. Sığorta müqaviləsi bağlanarkən bu Qaydalarla tanış olmaq;

13.3.3. Sığorta müqaviləsi üzrə istənilən açıqlamanı sığortaçıdan sorğu etmək;

13.3.4. Sığortaçının razılığı ilə sığorta məbləğinin və ayrı-ayrı sığorta riskləri üzrə sığorta məbləğlərinin ölçüsünə, sığorta müddətinə, sığorta haqlarının ölçüsünə dair sığorta müqaviləsinin şərtlərini dəyişdirmək. Belə dəyişikliklər sığorta müqaviləsinə əlavə sazişlə rəsmiləşdirilməlidir;

13.3.5. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermək;

13.3.6. Bu Qaydalarda, sığorta müqaviləsində, və qanunvericilikdə nəzərdə tutulan digər hüquqlardan istifadə etmək.

13.4. Sığortaçının hüquqları:

13.4.1. Sığorta müqaviləsi bağlanarkən sığortalının özünə məlum olan və / və ya etdiyi, sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortalıya sorğu vermək;

13.4.2. sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırması, və /və ya zərərin qiymətləndirilməsi üçün müstəqil eksperti, yaxud sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxsi təyin etmək. Sığorta hadisəsinin araşdırılması və zərərin qiymətləndirilməsi üçün təyin olunan müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər bununla bağlı sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər;

13.4.3. sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları sığortalıdan tələb etmək;

13.4.4. Sığorta ödənişinin ödənilməsi zamanı sığorta ödənişi məbləğindən sığortalının sığortaçıya ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq;

13.4.5. Sığortalı tərəfindən bağlanan müqavilə şərtlərinə əməl edilməsini yoxlamaq;

13.4.6. Sığortaçı sığorta hadisəsi ilə bağlı həm onun, həm də Sığortalının maraqlarının müdafiəsi üçün öz vəkilini və ya digər səlahiyyətli şəxsin təyin olunmasını zəruri hesab etdikdə - bu cür maraqların müdafiəsi üçün Sığortaçının göstərdiyi şəxslərə etibarnamə və ya digər zəruri sənədləri vermək. Sığorta hadisəsi ilə bağlı məhkəmədə Sığortalının maraqlarını təmsil etmək və ya digər şəkildə Sığortalının hüquqi müdafiəsini həyata keçirmək Sığortaçının öhdəliyi deyil, hüququdur. Sığortaçı məhkəmədə Sığortalının maraqlarını təmsil etməkdən imtina etdikdə, o, bu cür proseslərdə Sığortalının maraqlarını müdafiə edən vəkillərin xidmətlərinin ödənilməsi üzrə faktiki xərcləri Sığortalıya ödəməlidir. Bu cür xərclər sığorta müqaviləsinin müəyyən etdiyi məsuliyyət həddində ödənilir;

13.4.7. Sığorta tənzimlənməsi zamanı əlavə ekspertizanın təyin edilməsi;

13.4.8. Sığorta riski həddində artım baş verdikdə ona mütənasib sürətdə sığorta haqqının artırılmasını, ona xitam verilməsini və ya müqavilə şərtlərinin dəyişdirilməsini Azərbaycan Respublikasının qanuvericiliyinə müvafiq qaydada tələb etmək. Bu halda tələb olunan dəyişiklik müqaviləyə əlavə tərtib olunmaqla tərəflərin qarşılıqlı razılığı əsasında imzalanması yolu ilə həyata keçirimələdir.

13.4.9. Bu Qaydalarda, sığorta müqaviləsində, və qanunvericilikdə nəzərdə tutulan digər hüquqlardan istifadə etmək.

## 14. SIĞORTA RİSKİNDƏKİ DƏYİŞİKLİKLƏR

14.1. Sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən risklər barədə sorğu forması sığorta müqaviləsi bağlandığı zaman Sığortaçı tərəfindən Sığortalıya təqdim olunur. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində, Sığortalı, sığorta müqaviləsi bağlanan zaman Sığortaçıya bildirdiyi əhəmiyyətli halların dəyişilməsi, həmçinin sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən və ona məlum olan bütün digər hallar barədə Sığortaçıya dərhal məlumat verməlidir.

14.2. Sığortaçı sığorta riskinin artmasına təsir edən hallar barədə məlumatı əldə etdikdən sonra aşağıda göstərilən hərəkətləri etmək hüququna malikdir:

14.2.1. sığorta müqaviləsinin şərtlərini və müddəalarını dəyişmək,

14.2.2. əlavə sığorta haqqının ödənilməsini tələb etmək və ya,

14.2.3. belə dəyişikliklərin baş verdiyi tarixdən sığorta müqaviləsini ləğv etmək

## 15. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ SIĞORTALININ VƏZİFƏLƏRİ VƏ SIĞORTAÇI TƏRƏFİNDƏN NƏZARƏT

15.1. Sığorta hadisəsinin baş verməsini Sığortalı dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə yazılı qaydada bildirir. Sığortalı zərərin qarşısının alınması və ya təsirinin azaldılması və zərər vurulmuş əmlakın xilas edilməsi üçün bütün mümkün tədbirləri görməlidir.

15.2. Sığortalı sığortaçının və ya onun nümayəndələrinin zərər dəymiş əmlaka baxışın keçirilməsində və ya tədqiq edilməsində, vurulmuş zərərin səbəb və həcminin müəyyən edilməsində, iştirakını təmin etməlidir.

15.3. Sığortaçının tələbi ilə sığortalanmış əmlakın məhv olması və ya vurulmuş zərərin həcmi və səbəblərini müəyyənləşdirmək üçün zəruri bütün məlumat və sənədləri Sığortaçıya təqdim etməlidir.

15.4. Sığorta müqaviləsi üzrə sığortalı aşağıdakı hallar istisna olmaqla, zərər dəymiş əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etməlidir:

15.4.1. zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş əmlakın sonrakı itkiləri üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;

15.4.2. sığortaçı sığorta hadisəsi barədə bu qaydalarda nəzərdə tutulmuş müddətdə məlumatlandırıldıqdan 5 gün müddətində onun nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə;

15.4.3. digər hallarda zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda.

## 16. SIĞORTA HADİSƏSİNİN TƏSDİQİ

16.1. Sığortaçı (və ya təyin edilmiş müstəqil ekspert, yaxud sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxs) sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları bu qaydaların 16.2-ci maddəsi nəzərə alınmaqla, sığortalıdan tələb etmək hüququna malikdir.

16.2. Sığorta hadisəsi hesab edilə bilən, araşdırılması və ya qeydə alınması tələb olunan hadisələr barədə səlahiyyətli dövlət orqanlarına belə hadisələrin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən sənədin alınması üçün yazılı sorğu vermək sığortaçının və ya onun nümayəndəsinin vəzifəsidir.

## 17. ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

17.1. Sığorta hadisəsi nəticəsində dəymiş zərərin miqdarını sığortalının və ya faydalanan şəxsin, yaxud onların nümayəndəsinin təqdim etdiyi sığorta tələbi əsasında sığortaçı müəyyən edir.
17.2. Sığorta hadisəsi nəticəsində dəyən zərərin sığortaçı tərəfindən qiymətləndirilməsi, habelə miqdarı barədə tərəflər arasında razılıq əldə edilmədikdə, zərərin miqdarının qiymətləndirilməsi sığorta qanunvericiliyinin tələbləri nəzərə alınmaqla, təyin olunan müstəqil ekspert tərəfindən aparılır.
17.3. Sığorta hadisəsinin araşdırılması və zərərin qiymətləndirilməsi üçün təyin olunan müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər bununla bağlı sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər.

## 18. SIĞORTA ÖDƏNİŞİ

18.1. Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlər aşağıdakılardır:
- 18.1.1. sığortalının və ya faydalanan şəxsin sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə sığortaçıya ünvanladığı sığorta tələbi (ərizə, müraciət);
- 18.1.2. sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı qanunvericiliyə uyğun olaraq, hər hansı dövlət orqanına məlumat verilməlidirsə, həmin orqanın hadisə barədə təqdim etdiyi müvafiq sənəd;
- 18.1.3. dəymiş zərərin həcminin müəyyənləşdirilməsi üçün hadisə nəticəsində yaranan potensial xərclər və xərclərin bölgüsünü əks etdirən sənədlər (müvafiq hesab-fakturalar və işlərin aktı);
- 18.1.4. quyu qazılma proqramının nüsxəsi;
- 18.1.5. Quyunun işlənməsi üçün icazənin (səlahiyyətin) surəti;
- 18.1.6. Hadisə üzrə hesabatın surəti
- 18.1.7. Quyuda gələcəkdə planlaşdırılan qazma işlərinin, quyuların bərpası əməliyyatlarının təfərrüatları.

18.2. Sığortaçı bu Qaydaların 18.1-ci maddəsində qeyd olunan sənədlərin sonuncusunu aldıqdan sonra (sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa) 7 (yeddi) iş günü müddətində sığorta ödənişini həyata keçirir və ya yazılı şəkildə əsaslandırmaqla ödənişdən imtina edir.
18.3. Sığorta ödənişinin ödənilməsi zamanı sığortaçı sığorta ödənişi məbləğindən sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.
18.4. Sığortalı zədələnmiş də olsa sığorta hadisəsindən sonra qalıq əmlakdan imtina etmirsə, əmlakın qalıq dəyəri sığorta ödənişi məbləğindən çıxılır. Lakin imtina edərsə, Sığortaçı sığortalanmış əmlakın məhv olmasına görə müvafiq ödəniş verdikdən sonra sığortalının həmin əmlaka olan hüquqları Sığortaçıya keçir. Bütün qalıqlar Sığortaçıya verilməlidir. Sığortalı həmin hüquqların Sığortaçıya keçməsi üçün bütün zəruri tədbirləri görməyə borcludur.
18.5. Sığortalı və ya Faydalanan şəxs zərərin ödənişini üçüncü şəxslərdən aldıqda, Sığortaçı ancaq sığorta şərtlərinə əsasən ödənilməli məbləğlə üçüncü şəxslərdən alınmış məbləğ arasındakı fərqi ödəyir. Sığortalı bu cür məbləğləri alması barədə Sığortaçıya dərhal məlumat verməlidir.
18.6. Sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği həmin müqavilə üzrə verilmiş sığorta ödənişi həcmində azalmış hesab olunur. Sığorta qanunvericiliyində başqa hal nəzərdə

tutulmamışdırsa, bu zaman sığorta müqaviləsinə sığorta məbləğinin azalması ilə bağlı dəyişiklik etmək vacib deyil. Sığortalı əlavə sığorta haqqı ödəməklə, sığorta məbləğini bərpa edə bilər.

## 19. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNDƏN İMTİNANIN ƏSASLARI

19.1. Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

19.1.1. sığorta hadisəsi barəsində məlumatın sığortaçıya vaxtında verilməməsi nəticəsində sığortaçının hadisənin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda,

19.1.2. sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;

19.1.3. baş vermiş hadisənin qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;

19.1.4. sığorta hadisəsinin sığorta haqqı və ya onun hər hansı bir hissəsinin qanunvericilikdə və ya müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 (on beş) gün sonra, bu qaydaların 8.5.2-ci maddəsində nəzərdə tutulmuş halda isə sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 (üç) gün sonra baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda;

19.1.5. müqavilə və ya qanunla hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda, hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;

19.1.6. sığortalı, sığorta olunan və ya faydalanan şəxsin zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir;

19.1.7. Mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.

## 20. SUBROQASİYA HÜQUQU

20.1. Subroqasiya hüququ sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişi vermiş sığortaçının istifadə etmək hüququdur.

20.2. Faydalanan şəxsin zərərvuran şəxsə qarşı zərərin əvəzini ödəmək tələbi (iddiası) ilə bağlı hüquq əmlak sığortası üzrə sığorta ödənişini vermiş sığortaçıya subroqasiya qaydasında onun verdiyi sığorta ödənişi məbləğində keçir.

20.3. Faydalanan şəxs sığorta ödənişini aldıqda, subroqasiya hüququnun həyata keçirilməsi üçün özündə olan bütün lazımi sənədlərlə sığortaçını təmin etməlidir.

20.4. Faydalanan şəxs zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri sığortaçıya verməkdən imtina etdikdə, sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində azad edilir.

20.5. Sığortaçı subroqasiya hüququndan zərərvuran şəxsin özünə və (və ya) müvafiq sığorta hadisəsi ilə bağlı risklər üzrə həmin şəxsin məsuliyyətini sığortalamış sığortaçıya, həmçinin qanunvericiliyə əsasən, dəyən zərərə görə sığortalı və ya faydalanan şəxs qarşısında maddi məsuliyyət daşıya bilən digər şəxsə qarşı istifadə edə bilər.

## 21. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

21.1. Bu Qaydaların şərtlərinin yerinə yetirilməməsinə yə ya lazımı qaydada yerinə yetirilməməsinə görə tərəflər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

## 22. İŞ SİRLƏRİNİN GİZLİ SAXLANILMASI

22.1. Sığortaçı, Sığortalıya aid öyrəndiyi və ya iş prosesində öyrənəcəyi iş sirlərini gizli saxlamadığı halda Sığortalıya dəyən maddi və ya mənəvi zərərə görə qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.

## 23. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI

23.1. Sığortalı və ya sığorta olunan sığorta müqaviləsi üzrə hüquqlarının pozulmasını hesab etdiyi hallarda Azərbaycan Respublikasının Mərkəzi Bankına şikayətlə müraciət edə bilər.

23.2. Bu Qaydalara əsasən bağlanmış sığorta müqaviləsindən irəli gələn bütün mübahisələr ilkin olaraq danışıqlar yolu ilə pretenziya qaydasında, tərəflər arasında razılığa gəlinmədiyi təqdirdə isə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məhkəmələr vasitəsilə həll edilir.

## 24. XÜSUSİ ŞƏRTLƏR

24.1. Hal-hazırkı sığortanın şərtlərinə müvafiq olaraq zəmanət verilir ki, əgər Sığortalı, qazma, dərinləşdirmə, baxılma, təmir edilmə, tamamlanma və/və ya bərpa edilmə prosesi içində olan hər hansı bir sığorta olunmuş quyu üzrə əməliyyatçı və ya birgə əməliyyatçıdırsa, o zaman bütün tələblərə, təlimatlara, qətnamələrə, eləcə də müvafiq sənaye sahəsində qəbul edilmiş adi və hamı tərəfindən bilinən qaydalara uyğun olaraq, quyunun yer səthindəki borusuna və ya quyu ağzındakı qoruyucu borulara fontandan qoruyucu (blouaut preventor) quraşdırılmalıdır. Belə qoruyucular ümumi qəbul edilmiş təcrübəyə müvafiq olaraq quraşdırılmalı və sınaqdan keçirilməlidir.

Əgər Sığortalı hər hansı bir sığorta olunmuş quyu üzrə əməliyyatçı və ya birgə əməliyyatçı deyildirsə, o zaman o, əməliyyatçı tərəfindən bu paraqrafda qeyd olunmuş zəmanətlərin yerinə yetirilməsinə nəzarət etməlidir.

24.2. Həmçinin zəmanət verilir ki, Sığortalı və/və ya onun podratçıları, zərərin və ya ətraf mühitin çirklənməsinin azaldılması məqsədi ilə nəzərdə tutulmuş ştuser və digər avadanlıqların quraşdırılması zamanı bütün qayda və təlimatlara əməl edəcəklər. Həmçinin belə avadanlıqlar (qazma və/və ya təmir qurğuları da daxil olmaq şərti ilə) müvafiq orqanlar tərəfindən sertifikatlandırılmış (tələb olunduğu zaman) heyətin istifadəsinə veriləcək.

24.3. Həmçinin zəmanət verilir ki, Sığortalı quyunun nəzarətdən çıxması və ya qazma məhlulunun, neftin, qazın və ya suyun daşması və ya sızması halında, quyu üzərində nəzarəti bərpa etmək və daşma və ya sızmanın qarşısını almaq üçün bütün mümkün tədbirləri görəcəkdir.

24.4. Həmçinin zəmanət verilir ki, Sığortalı, bu sığorta təminatına daxil olan bütün əməliyyatları apararkən diqqətli davranmalıdır. Bu zaman Sığortalı, texniki təhlükəsizlik qaydalarına əməl etməli və bu məqsədlə istifadə edilə biləcək lazımi avadanlığa malik olmalıdır və sığorta olunmuş quyuda təhlükəli

vəziyyət yaranarsa öz xərcləri hesabına, hal-hazırkı sığorta ilə təmin olunmuş risklərin qarşısını almaq üçün bütün mümkün olan tədbirləri görməlidir.

24.5. Razılaşdırılmışdır ki, Sığortalının əməliyyatçısı olduğu və yaxud əməliyyatçı olmadan maraqlı olduğu, lakin öz hissəsinin sığortası üçün məsuliyyət daşıdığı quyular Sığortalının öz hissəsindən az olmamaq şərti ilə, proporsional olaraq təmin edilir.

24.6. Tərəflərin qarşılıqlı razılığına əsasən, Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Qaydalara zidd olmaması şərtilə, sığorta müqaviləsində əlavə şərtlər nəzərdə tutula bilər.